# Teatral ifaya malik aşıq

*Kökü yüzilliklərin dərinliklərindən gələn, zəngin musiqi və söz repertuarına, ruhumuzun qorunmasında, milli istiqlal, dövlətçilik düşüncəsinin aşılanmasında qəhrəmanlıq, yurdsevərlik duyğularının artmasında aşıq sənəti tarixən olduğu kimi, bu gün də misilsiz rol oynayır.*




Ulu öndərimiz Heydər Əliyevin "milli varlığımızın möhtəşəm abidəsi" adlandırdığı "Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımıza məxsus mənəvi mədəniyyətin şah əsərləri kimi məhz aşıq sənətinin bağrından qopmuşdur. Milli musiqi mədəniyyətimizin nadir incilərindən olan Üzeyir Hacıbəyovun "Koroğlu" operası aşıq musiqisi və epos mədəniyyətimizdən



qaynaq götürmüşdür. Bir çox Azərbaycan və xarici ölkə bəstəkarları öz əsərlərində dəfələrlə aşıq musiqisindən bəhrələnmişlər.

"Aşıq el anasıdır, haqqın səsidir" - qənaətində olan xalqımız yüzillər boyunca öz ustad sənətkarlarına xeyirbərəkət, şadlıq gətirən ülvi bir simvol kimi yanaşmışdır. Musiqiçi, şair, aktyor, rəqqas kimi keyfiyyətləri unikal şəkildə özündə birləşdirən saz-söz ustaları cəmiyyətin mənəvi həyatını istiqamətləndirən etnosun milli-mental keyfiyyətlərini qoruyub möhkəmləndirən nüfuz və ehtiram sahibləri olmuşlar.

Böyük coşqunluqla yazıb-yaradan, aşıq sənətini inkişaf etdirən, sağlığında klassikləşən ustad aşıqlardan biri də **Göyçəli Aşıq Əsəd Rzayev** olub. O, erkən yaşlarından şeirlər yazmış, yaz-yay aylarında "Çalmalı" dağının nəğməli yamaclarını qarış-qarış gəzib-dolanmış, sal daşlar yastığı, göy çəmənlər döşəyi olmuş, çox vaxt Kəlbəcər ellərinə getmiş, sidq ürəklə məclislərdə iştirak etmiş, sədəfli sazını dilə gətirmişdir. Aşıq Əsəd böyük folklor bilicisi, yaddaşında minlərlə şeir olan tükənməz bir xəzinə idi.

Görkəmli saz-söz ustadı Aşıq Əsəd Rzayev 1874-cü ildə Göyçə mahalının Qaraqoyunlu kəndində dünyaya göz açmış, gənclik illərində görkəmli aşıqlarla keçirilən dastan axşamlarında məlahətli səsi, zənguləsi ilə dinləyicilərin qəlbinə yol tapmış, alqışlarla qaşılanmışdır. Kiçik yaşlarından atasını itirən Əsəd çətinliklərlə üzləşmişdir. Kasıblığın daşını atmaq məqsədilə Əsəd 5 il muzdurluq etmiş, qabarlı əlləri ilə bir parça çörək pulu qazanmış, həmişə könlünü telli saza vermiş, get-gedə çalıb-oxumaqda püxtələşmiş və məclislərin yaraşığına çevrilmişdir. 1895-ci ildən başlayaraq ustad sənətkar kimi tanınan Göyçəli Aşıq Əsəd el məclislərində iştirak etmiş, sinədəftər ifaçı kimi tanınmışdır. Aşıq 1918-ci ildə erməni vandallarının Qərbi Azərbaycanda törətdikləri qırğınlardan psixoloji gərginlik keçirmiş, hayların qəddarlığına qarşı bir neçə şeirlər yazmış, ən nəhayət, erməni zülmündən xilas olmaq üçün Tovuz rayonuna köçmüşdür. Birinci Aşıqlar qurultayında Aşıq Əsəd Rzayevə Azərbaycanın ilk aşığı adı verilmişdir. Tovuzda yaşadığı illərdə Aşıq Əsəd əmək adamlarına bir çox şeirlər ithaf etmiş, ifa etdiyi, "Yanıq Kərəmi", "Naxçıvani", "Ruhani", "Qaytarma", "Başsarıtel", "Dilqəmi" və digər aşıq havaları dinləyicilərə xoş təsir bağışlanmışdır. O, hər havanı mükəmməl ifa etməklə yanaşı, həm də ona özünəməxsus gözəllik verə bilirdi. Təkrar çaldığı eyni havalar bir-birinə yalnız zahirən bənzəyirdi. Obrazlı desək, hər dəfə ifa etdiyi havada yeni bir möcüzə kəşf etmək qüdrətində idi Aşıq Əsəd.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, aşıq-şair Əsəd Rzayev 1938-ci ildə Moskvada Azərbaycan incəsənəti ongünlüyünün iştirakçısı olmuş, Azərbaycan aşıq sənətinin inkişafındakı səmərəli fəaliyyətinə görə "Şərəf nişanı" ordeninə və digər diplomlara layiq görülmüşdür.

İkinci Dünya müharibəsi dövründə görkəmli el sənətkarı Aşıq Əsəd Rzayev həmişə maraqlı konsertləri ilə arxa cəbhədə olan insanların görüşünə gəlmişdir.

Aşıq Əsəd digər aşıqlarla birlikdə ölkəmizdə ayrı-ayrı illərdə mədəniyyət işçilərinin tədbirlərində iştirak etmiş, Azərbaycanın ayrı-ayrı bölgələrinə yaddaqalan səfərləri olmuş, aşıq şeirinin bütün formalarında yazıb-yaratmışdır. Aşıq Əsədlə bağlı yerli mətbuatda dəfələrlə oçerklər dərc olunmuşdur.

Aşıq Əsədin Tovuzda qələmə aldığı şeirlərindən biri diqqəti cəlb edir:

**Ağlasam, gözümün yaşı sən oldun,**
**Danışsam, sözümün başı sən oldun,**
**Dünya bir üzüksə, qaşı sən oldun,**
**A mənim qeyrətli elim, Çalmalı,**

***

**Əsəd, düşübdür qəza-baxtına,**
**Ömür varsa et bir az, vaxtına!**
**Tanrı baxtavarlıq yaza baxtıma,**
**Gəlim qucağında ölüm, Çalmalı!**

Biz tanınmış el sənətkarı, televiziya kanallarında tez-tez görünən, saz-söz həvəskarlarının sevimlisinə çevrilən Əməkdar Mədəniyyət işçisi, Aşıq Fətullahla bu günlərdə Bakı şəhərində keçirilən tədbirdə yenidən görüşdük. O, Aşıq Əsəd Rzayevlə bağlı xatirələrini bölüşdü:

- Ustad aşıqların sözləri dildən-dilə gəzə-gəzə yaratdıqları havacat sazlar simlərində nəsildən-nəslə keçir. Azərbaycan aşıq sənətinin təşəkkül tapmasında, dilimizin bugünkü müasir səviyyəyə gəlib çatmasında el aşıqlarının fəaliyyəti danılmazdır. Söz xiridarlarından biri də Göyçəli Aşıq Əsəd Rzayev olub. Onun şeirlərində fəlsəfi fikirlər güclü, poeziyası ədəbiyyat nəzəriyyəsinin tələb və prinsiplərinə uyğun olub. O, bədii sözlə lövhə çəkməyin, sözün daxili enerjisindən tam istifadə etməyin misilsiz ustadı idi. Aşıqsevərlər onu söz nəhəngi kimi tanıyırlar.

**Qədir ASLAN,**
**"Respublika".**